**Unutsaq – unuduları**

**Uşaqlıqdan yaman yurdcanlıyam. Bir qədər uzaq düşəndə, valideynlərimlə hansısa şəhərə, kəndə gedəndə bağ-bağatlı həyatimiz, nənəmin təndiri, nehrəsi üçün darıxırdım. Evə həm də ona görə tələsirdim ki, atam Əhməd kişinin qonaq-qarası əskik olmayan ocağı başında yaxşı kişilər, mərd kişilər, yaddaşlarda qalan kişilər barədə bitib-tükənməyən söhbətləri dinləməyə alışmışdım. O söhbətlərə elə öyrəşmişdim ki, Bakının, Moskvanın nüfuzlu ali məktəblərində təhsil alarkən belə bir ayağım kəndimizdə idi. İcazə almaq üçün daha bəhanə də qalmamışdı...**



# Nağıllaşan dünyamızın unudulmaz kişiləri

## *yaxud kitablara sığmayan ömür*

Azərbaycan Dövlət İnformasiya Agentliyindəki (AZƏRTAC), Mətbuat Şurasındakı məsul vəzifələr belə qaçaraq səfərlərimin sayını azaltsa da, bayramlar dadıma çatıb. İndi şükürlər olsun Milli Məclisin deputatı, Azərbaycan–Gürcüstan Parlamentlərarası Dostluq Qrupunun, AMŞ-nin sədri kimi yalnız doğma yurdda deyil, qonşu respublikanın, bütövlükdə, bütün guşələrində yaşayan soydaşlarımızla görüşmək, söhbətləşmək imkanlarım artıb.

Yenə adətimdən qalmıram. Bu yaxınlarda doğulub boya-başa çatdığım Faxralı kəndində bir qrup yaşlı insanla görüşərkən maraqlı epizodla qarşılaşdım. Həmsöhbətlərimdən biri Bakının "Adiloğlu" nəşriyyatında 9 il əvvəl çapdan çıxmış, oxunmaqdan vərəqləri didiklənmiş 312 səhifəlik "El ağsaqqalı: Ayvaz Dursunoğlu" kitabını vərəqləyir, o biriləri isə diqqətlə qulaq asırdılar. Tez-tez "Allah rəhmət eləsin!" duaları ilə mərhumu yada salmaqla yanaşı, "O, təkcə Gorarxının yox, bütün Gürcüstan azərbaycanlılarının kisəsindən getdi"– deyə nisgillə heyfsilənirdilər.

Onlar həmkəndlilərim olan faxralılar idi. Təbii ki, od olmasa, tüstü çıxmaz. Hələ uşaqlığımda ocaq başındakı sayım-lı-seçimli insanlar barədə nağıla bənzər, fəqət başdan-ayağa həqiqət seçimli-biçimli söhbətlərdə kifayət qədər epizodlar eşitmişdim. Ona görə sıraladığım, bənzəri olmağı arzuladığım dağ kimi kişilərin cərgəsinə Ayvaz Dursunoğlunun da adını ön cərgələrə əlavə etmişdim.

O unudulmaz kənd gecələrində hələ keçən əsrin 30-cu illərində sovet hökuməti ilə barışmayıb qardaş Türkiyəyə pənah aparan qəhrəman babalarımın, Borçalıya şan-şöhrət gətirən kişilərdən Səməd ağanın, Halay ağanın, Aslan ağanın, Emin ağanın igidlikləri dillərdən düşmürdü. Ayvaz Dursunoğlu onlardan xeyli gənc olmasına baxmayaraq, onun da qətiyyətindən, xeyirxah əməllər sahibi olmasından geninə-boluna söhbət açılırdı. Fikirləşirəm ki, nə yaxşı qədim ellərimiz, yurdlarımız belə bənzərsiz kişilər sarıdan korluq çəkməyib. Yoxsa, torpaqlarımızda çoxdan çaqqallar ağalıq edər, evlərimiz bayquş məskəninə çevrilərdi. Bax,bu duyğu "Yaxşı kişilər atları minib getdilər"... pessimizmini daim məndən uzaqlaşdırır.

"El ağsaqqalı: Ayvaz Dursunoğlu" kitabının 51-ci səhifəsində şair, əməkdar incəsənət xadimi, "Borçalı" Cəmiyyətinin Ağsaqqallar Şurasının sədri Eyvaz Borçalı "Yaxşı kişilər, yaxşı atlar... və yaxşı adlar" sərlövhəli cəzbedici yazısında qəhrəmanımızın "at mindiyini heç vaxt görmədiyini" vurğulaması formal məntiq olaraq köməyimə çatsa da, Ayvaz Dursunoğlu timsallı insanları köhlən atsız təsəvvürə gətirmək qeyri-mümkündür.

O, gəncliyindən son mənzilədək dövlətə–hökumətə bağlı vəzifələr tutdu, o cümlədən belə tipli təsərrüfatlara rəhbərlik etdi. Hər hansı geridə qalan sovxozda, kollektivdə işləri qaydaya qoymaq lazım gələndə nəzərlər A. Dursunoğluna dikildi. Az-çox təsərrüfatdan başı çıxanlar bilir ki, kəndli psixologiyası xidməti maşına yaxınmağa üstünlük verən sədri, direktoru qəbul etmir. Təsərrüfat başçısı at belində daha ötkəm, nüfuzlu, sözükeçər görünür. Ayvaz kişi əkinçinin, heyvandarın, bağçının görüşünə belə qiyafədə, xəbərdarlıqsız gəlirdi. Nəyi isə tələb etməzdən əvvəl həmsöhbətinin qayğıları ilə maraqlanır, xeyir-şərinə köməyini əsirgəmir, lazım gələndə cavanlara elçilik edirdi. Kəndli üçün ideal təsərrüfat rəhbəri belə olur. Ömür boyu unudulmayan, tələbkar, qayğıkeş insan, başçı, ağsaqqal obrazı...

Kitab xatirələr toplusudur. Hər yazı ona görə maraqla oxunur ki, kimsə hiss və duyğularını təkcə eşitdiklərinə görə qələmə almır. Gördüklərindən, şahidi olduqlarından da şövqlə danışır.

Nəşrin müəllifi qonşu respublikada kifayət qədər tanınan, Heydər Əliyev adına Gürcüstan–Azərbaycan Tədris Universitetinin rektoru, pedaqoji elmlər doktoru, professor, Gürcüstan Təhsil Elmləri Akademiyasının akademiki Novruz Bayramovdur. Alim-pedaqoq "O, xalqının dayağı idi" adlı qısa, səlis yazısı ilə söz demək imkanını xatirələrini bölüşmək istəyən sanballı ziyalıların, dövlət və ictimai xadimlərin, bir sözlə, Ayvazsevərlərin öhdəsinə buraxır.

Nəşrdə A. Dursunoğlu barədə təəssüratlarını bölüşmək istəyən 66 imzaya rast gəlirik. Nə yaxşı ki, 9 il əvvəl gərgin zəhmət tələb edən bu təşəbbüs baş tutub. Çünki həmin müəlliflərin bir qismi indi həyatda yoxdur. Yəqin ki, xatirələrini də haqq dünyasına aparacaqdılar, nəticədə, ciddi boşluqlar, çətinliklər yaranacaqdı. İstərdim övladları, yaxınları nəşrdə imzası görünməyənləri, bu və ya digər səbəblərdən əlçatmayan insanları tapıb Gürcüstanın əsrarəngiz Gorarxı kəndində dünyaya gələn Ayvaz Həsənovun 90 illik yubileyinə ən qiymətli töhfələrini versinlər.



Bu, yaxın keçmişimizin unudulmaz simalarının müasir və gələcək nəslə tanıdılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Kitab xalq şairi Zəlimxan Yaqubun "Əyilməz" şeiri ilə başlanır:

***Öz eşqi var hər ucalan zirvənin,***
***Dağa təpə deyilməz ki, deyilməz.***
***Şimşəklərin pəncəsində didilməz,***
***Sel ağzında yeyilməz ki, yeyilməz.***

Borçalı elləri sazlı-sözlü olduğundan yalnız əfsanəviləşmiş qəhrəmanlar nəzmə çəkilmir, dastanlaşdırılmır, gerçək hünər sahiblərinə də söz qoşulur, adlarına kitab bağlanır:

***Mətin olmağından, mərd olmağından,***
***Sözünü vüqarla danışmağından,***
***Təmiz dostluğundan, yoldaşlığından,***
***Demək üçün mən buraya gəlmişəm.***

Bu bədii parça isə fizika-riyaziyyat elmləri doktoru, professor Hidayət Nuriyevin "Gəlmişəm" şeirindən götürülüb. Daha bir alimimiz Mürsəl Həkimov qəhrəmanlıq dastanlarını, bir çox klassiklərin şeirlərini əzbər bilən, poeziya məclislərinin iştirakçısı, sinədəftər Ayvaz müəllimin qələm sahiblərinin diqqətini çəkməsini təbii sayır. Hacıxanım Səadət Butanın, Aşıq Kamandarın, Aşıq Məhəmməd Sadaxlının, şairlərdən Mülkədar Nadirin, Yasin Orucun... yaradıcılıq nümunələri kitaba xoş əhval gətirir.

Bununla belə nəşrdə xüsusi diqqəti çəkən cəhət yazıların məntiqi bir ardıcıllıqla Ayvaz Dursunoğlunun bütöv obrazını tamamlaması sayılmalıdır. Konkret desək, hər hansı həssas sənətkarın onunla bağlı irihəcmli əsər yazması, sənədli film çəkməsi üçün orada kifayət qədər geniş material var. Mən özümü, ilk növbədə, gürcüstanlı həmyerlilərimə tutaraq onları bu yöndə hərəkətə gəlməyə səsləyirəm.

Ayvaz kişinin böyüklüyünü, əsl vətənpərvərliyini təsəvvürə gətirmək üçün Gürcüstanda da xaos, hərcmərclik başlananda övladlarını başqa respublikalardan yanına gətirməsini, pozucu qüvvələrlə üzbəüz dayanaraq onların mənfur planlarını pozmasını, azərbaycanlı-gürcü çoxəsrlik dostluğuna xələl gəlməməsi üçün bütün imkanlarını əsirgəməməsini göstərmək kifayətdir. Bu, gəlişigözəl sözlər deyil.

Keçmiş SSRİ-nin xarici işlər naziri, Gürcüstan Respublikasının eks-prezidenti Eduard Şevardnadzenin "Belə şəxsiyyətlər tez-tez yetişmir" sərlövhəli yazısında oxuyuruq: "Ayvaz Həsənov heyrətamiz dərəcədə qabiliyyətli və bacaraqlı insan idi".

1975–1981-ci illərdə Gürcüstanın kənd təsərrüfatı naziri olmuş Nodar Citanaya keçmiş müavini Ayvaz Həsənovun prinsipial, həmişə yenilik axtaran, bütün dövlət tapşırıqlarını yerinə yetirməyə çalışan, dostluğu qoruyan şəxs olduğunu xarakterizə edir. Gürsüstan KP MK-nın sabiq birinci katibi Cumber Patiaşvili dəfələrlə orden, medallara layiq görülmüş, qurultaylar iştirakçısı olmuş, rəhbər orqanlara seçilmiş Ayvaz Həsənovun daha bir yüksək keyfiyyətini qabardır: "O, kəndlinin həyatı ilə yaşayırdı".

Marneuli rayonunun keçmiş partiya komitəsinin birinci katibi Kamal Məmmədovun "Layaqətli insan", müharibə və əmək veteranı Cəmil Kələyevin "Ömründən sonra da yaşayan insan", "Gürcüstan" qəzetinin redaktoru Süleyman Süleymanovun "Ayvazı belə anırıq", Dmanisi rayonunun Qarabulaq kənd məclisinin sədri Cahangir Orucovun " Köç yolundan qayıdan oba" sərlövhəli yazıları... Ayvaz Dursunoğlunun portretindən digər cizgilərdir.

Sonda vurğulayım ki, faxralılarla görüşərkən fikrimdən Ayvaz Dursunoğlu haqqında, bu toplu barədə yazı yazmaq keçdi. Düzü, kitabı həmkəndlilərimdən ala bilməzdim. Bakıya dönərkən həmin kitabı böyük insanın oğlu, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov vasitəsilə əldə etdim, düşüncələrimi ona və bütün Ayvazsevərlərə yetirməyi özümə borc bildim.

***Əflatun AMAŞOV,***
***Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisinin deputatı, Azərbaycan–Gürcüstan Parlamentlərarası Dostluq Qrupunun rəhbəri***